# Mən bu dünyaya zəfər üçün gəlmişdim..



**3 ayın cəngavəri, 18 yaşlı qəhrəman - Vətən müharibəsinin ən gənc şəhidi Vüsal Novruz oğlu Allahverdiyevin Cənnətdən yazdığı dastan...**

**Ölümlərdən saqınma, məyus olmaqdan utan!**
**Bir dəfə düşün səni nədir dünyada tutan?**
**Məfkurəsindən başqa hər varlığı unudan**
**Qəhrəmanlar kimi sən əbədi qalmalısan...**

İndi cənnətdə, cənnətin ən gözəl guşəsindən böyük sevinclə, qürur hissi ilə Sizə öz həyat hekayəmi danışıram. Bu hekayəni 6 noyabr 2020-ci ildə, Xocavənd istiqamətində şəhid olduqdan sonra ruhum digər şəhidlərimizin ruhu ilə azad etdiyimiz Qarabağ səmalarında cövlan edən vaxt yazmağa başlamışam. Yəqin ki, Siz də bu dastanı heç vaxt unutmazsınız və oxuyarsınız... Məndən Sizə qalan vəsiyyət və miras elə budur...

Mən Allahverdiyev Vüsal Novruz oğlu 2002-ci ildə Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşam. Ailəm məni orta məktəbə də, əsgərliyə də neçə-neçə arzular və ümidlərlə yola salıb... Qəlblərindəki bu arzuların və ümidlərin içərisində torpaqlarımızın düşmən tapdağından azad olunması arzusu da var idi... Ancaq məni, hələ də körpələri kimi sandıqları övladlarını bələkdə silahla, topla, tüfənglə təsəvvür etməyiblər... Necə etsinlər, axı, mən körpə idim, uşaq idim...

Orta məktəbdə aşağı siniflərdə oxuyanda bir Qəhrəmanın taleyi hamının taleyini dəyişdirdiyi kimi, mənim də taleyimi, dünyagörüşümü tamamilə dəyişdi. Tariximi yenidən yazdı, məni yeni tarix yazanlardan etdi. Mən həmişə ana dilimizlə bağlı olan dərslikləri mükəmməl oxumuşam, mütaliə etmişəm. Əlimdən kitab düşməyib. Elə adaşım Vüsal Allahverdiyevlə danışanda o da mənə dedi ki, mən də mütaliələr edirdim, Nihal Atsızın kitablarını oxuyurdum, onun bozqurdla bağlı olan kitabları əlimdən düşmürdü. Mən də eyni etdiyimi bildirərdim. O mənə deyərdi ki, yəqin, elə Allah Səni dünyaya bəxş edən andan Vətən üçün, vətənsevər yaradıb. Doğulduğun ilk andan Vətən oğlu olmusan. Elə həmin günlərdən Vətən yoluna ömrünü həsr etməyə hazırlaşmısan, bunu həyata keçirmək üçün yolçuluğa başlamısan.

Lap kiçik yaşlarımda, orta məktəbə gedənə qədər tariximizi öyrənməyə görə məktəb yaşım çatmadığı üçün mən atamdan, anamdan tariximizi, tarixin bizə verdiyi dərsini öyrənirdim. Nəslim, nəcabətim, soyum, boyum haqqında atam, anam məni məlumatlandırırdı. İlk olaraq Ulu Öndərimizi, onun Azərbaycan xalqına miras qoyduğu cənab Prezidentimizi öyrəndim, sonra başladım tarix yoluna... Ancaq, 2010-cu ildə, yay tətilinin ilk günlərində bir qəhrəmanın dillərdə əzbər olan adı qulaqlarımda əks-səda verdi, verdi: MÜBARİZ! 22 yaşında, yaşına, gəncliyinə önəm verməyib, Vətəninə önəm verən, düşmənin qəddarlığına, haqsızlığına dözməyib vulkan kimi püskürən, zamanın haqsızlığına üsyan edən bir Qəhrəman və onun yaddaşlardan silinməyəcək mübarək adı...

**(Davamı var)**

**Sevindik Nəsiboğlu**

Kredo.- 2021.- 26 may.- S.5.